AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əlyazması hüququnda

**SEVİNC TƏHMƏZ QIZI HACIYEVA**

# QAFUR RƏŞAD MİRZƏZADƏNİN PEDAQOJİ FƏALİYYƏTİ VƏ MAARİFÇİLİK GÖRÜŞLƏRİ

5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI – **2016**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fərrux Abbas oğlu Rüstəmov**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Əməkdar elm xadimi, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü*

**Rəsmi opponentlər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Əməkdar müəllim*

**Alxan Bayram oğlu Məmmədov**
*filologiya üzrə elmlər doktoru, professor,*

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Pedaqogika və psixologiya kafedrası**

Müdafiə « 20 » sentyabr 2016-cı ildə saat $16^{00}$ - da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat « ___» __________ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **K.R.Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

`

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan xalqı zəngin təhsil və pedaqoji fikir tarixinə malikdir. Ulu babalarımız böyüyən nəslin təhsil-tərbiyəsi ilə bağlı tarix boyu yüksək fikirlər söyləmiş, zəngin irs yaratmışlar. Müasir dövrdə tarixi-pedaqoji irsin öyrənilməsi böyük aktuallıq kəsb edir. Xalqın min illər boyu yaratdığı təhsil-tərbiyə xəzinəsinin gənc nəslə öyrədilməsi onların dünyagörüşünü artırır, intellektual səviyyəsini yüksəldir, elmi-pedaqoji təfəkkürünü zənginləşdirir. Keçmişdəki nailiyyətlərin öyrənilməsi həm xalqın şanlı tarixi barədə təsəvvür və qürur yaradır, həm də yeni nəsildə gələcəyə inam oyadır, sonrakı yaşayışı istiqamətləndirməkdən ötrü ona stimul verir. Ona görə də yaşanmış tarix böyüyən nəsildə müdriklik kimi yüksək əxlaqi keyfiyyətin formalaşması üçün zəngin təcrübədir. Keçmiş həmişə indiki zamandan daha müdrikdir, daha obyektivdir, daha çox həqiqətdir. Ona görə də millətdə, xüsusilə onun gənclərində keçmişə hörmət hissi tərbiyə edilməlidir. Millət öz tarixini öyrənməlidir. Bunsuz inkişaf etmək mümkün deyil. Hər bir millət inkişaf etmək, bəşər mədəniyyətinə töhfələr vermək, imzasını imzalar içində görmək üçün öz keçmişini, soy-kökünü öyrənməli, tarixini bilməlidir.

Azərbaycan pedaqoji fikir klassiklərinin (N.Gəncəvi, M.Füzuli, Ə.Bəhmənyar, X.Təbrizi, Q.Təbrizi, İ.Nəsimi, Ə.Təbrizi, Ş.İ.Xətai, M. P.Vaqif, M.V.Vidadi, A.A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi, M.T.Sidqi, S.M.Qənizadə, R.Əfəndiyev, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, F.Köçərli, R.Əfəndiyev, Ü.Hacıbəyov, F.Ağazadə, N.Nərimanov, Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Cavad, H.Cavid, M.Hadi, A.Şaiq, M.Mahmudbəyov, S.S.Axundov, S.Vurğun və b.) şəxsiyyətin mənəvi-ruhi inkişafı, onun əqli-əxlaqi, etik-estetik, fiziki, əmək tərbiyəsi, humanizm, vətənpərvərliklə bağlı ideyaları müasir dövrümüz üçün olduqca böyük əhəmiyyət kəsb edir.

Azərbaycan pedaqoji fikir tarixinin öyrənilməsinə XX əsrin 30-cu illərindən başlanılmışdır. İlk dəfə 1939-cu ildə prof.Ə.Seyidov A.A.Bakıxanov haqqında namizədlik, 1947-ci ildə isə A.A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, S.Ə.Şirvani, H.Zərdabi haqqında doktorluq dissertasiyası müdafiə etmişdir. Sonrakı illərdə Azərbaycan təhsil və pedaqoji fikir tarixinin müxtəlif problemləri həm doktorluq (Mehdi Mehdizadə, Hüseyn Əhmədov, Aben Kərimov, Əliheydər Həşimov,

Ağahəsən Rzayev, Əjdər Ağayev, Əmrulla Paşayev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Sürəyya Əliyeva, Ellada Quliyeva), həm də namizədlik (Mərdan Muradxanov, Zümrüd Axundova, Əfşan Qədimbəyova, Eldar Zeynalov, Əhməd Əhmədov, Əmir Tağıyev, Əyyub Tağıyev, Əsəd Yəqubi, Zenfira Mehdizadə, Hadı Rəfibəyli, Mircəfər Həsənov, Əli Adıgözəlov, İramin İsayev, Həsən Bayramov, Aytən Qəhrəmanova, Vidadi Bəşirov, Sevinc Əzimova, Hümeyr Əhmədov, Sabir Orucov, Vəzirxan Zərbəliyev, Vahid Rzayev, Ədalət Cəlilov, Bəhruz Nəsirov, Sahilə Orucova və b.) dissertasiyalarının predmetinə çevrilmişdir.

XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycan xalqının təhsil və pedaqoji fikir tarixinin öyrənilməsinə təşəbbüs göstərilmişdir. Akademik Hüseyn Əhmədovun ciddi səyi nəticəsində 1977-ci ildə "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" kursunun proqramı hazırlanmış, ADPU-da, Naxçıvan Dövlət Universitetində və Tbilisi Dövlət Pedaqoji Universitetində sınaqdan keçirilmişdir. Həmin kursun proqramı əsasında H.Əhmədov dərs vəsaiti hazırlamış və onun çapına nail olmuşdur. Bu kursun tədrisi gələcək müəllimlərin dünyagörüşünü genişləndirir, Azərbaycan xalqının min illər boyu yaratdığı təhsil-tərbiyə ilə bağlı biliklərini zənginləşdirir, onlara tədqiqatçılıq vərdişləri aşılayır. Kursun tədrisində XIX əsrin II yarısında və XX əsrin əvvəllərində yaşayan və çoxşaxəli fəaliyyət göstərən pedaqoji fikir klassiklərinin pedaqoji fəaliyyətlərinin və maarifçilik görüşlərinin öyrədilməsi də nəzərdə tutulur. Bu mütəfəkkir insanlar Ulu Öndər Heydər Əliyevin təbirincə desək: "Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri, xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər."

Belə şəxsiyyətlərdən biri də Qafur Ələkbər oğlu Mirzəzadədir (Qafur Rəşad Mirzəzadə). O, XX əsrin əvvəllərində Azərbaycanın ictimai-mədəni, tarixi-pedaqoji həyatında fəal iştirak etmiş, milli məktəblərin dərsliklərlə təmin olunmasında xüsusi fəallıq göstərmiş, milli uşaq ədəbiyyatının və mətbuatının inkişafında, məktəb və təhsil həyatımızın yüksəlişində, tərcümə əsərlərinin artımında, uşaqlar üçün mütaliə kitablarının yaradılmasında böyük xidmətlər göstərmişdir. Onun 18-ə qədər dərslik və dərs vəsaiti XX əsrin əvvəllərində Azərbaycanda təhsilin məzmununun milliləşdirilməsində, demokratikləşdirilməsində mühüm rol oynamışdır. Redaktorluğu ilə nəşr olunan «Məktəb» jurnalı böyüməkdə olan nəslin milli müstəqillik və dövlətçilik ruhunda tərbiyəsində mühüm rol oynamışdır. Uşaqlar üçün nəşr etdirdiyi qiraət kitabları öz məzmun,

məndəricə və ideyası etibarı ilə bu gün də öz aktuallığını itirməmişdir. O, pedaqoji fikir tariximizdə ilk coğrafiya dərsliklərinin müəllifi kimi tanınır. Təhsil və tərbiyə ilə əlaqəli bir sıra dəyərli mətbu məqalələr yazmış, təhsil və dərsliklərlə bağlı yaradılmış müxtəlif komissiyaların üzvü kimi faydalı işlər görmüşdür. Çox təəssüf ki, bu müqtədir pedaqoji fikir klassikinin çoxşaxəli pedaqoji fəaliyyəti, zəngin pedaqoji irsi indiyə qədər araşdırılmamış, ciddi elmi tədqiqat əsərlərinin (xüsusilə dissertasiyaların) predmetinə çevrilməmişdir. Onunla bağlı R.Yüzbaşovun kiçik həcmli bir kitabçası və bir məqaləsi, V.Əhmədovun bir məqaləsi nəşr olunmuşdur. 1992-ci ildə V.Əhməd onun "Ayineyi-millət. Oyanız qardaşlar" əsərini tərtib və nəşr etdirərkən müəllifin həyat və fəaliyyəti ilə bağlı kitaba "Ön söz" də yazmışdır. Həmin "Ön söz"də V.Əhməd pedaqoqun həyat və yaradıcılığı barədə müxtəsər məlumat vermişdir. Bundan başqa Z.Abdullayevanın pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyada Q.R.Mirzəzadənin yaradıcılığının müəyyən məqamlarına, daha dəqiqi bəzi coğrafiya dərsliklərinə çox qısa və yığcam şəkildə nəzər salınmışdır. Göründüyü kimi Azərbaycan təhsil və pedaqoji fikir tarixində əvəzsiz xidmətləri, zəngin pedaqoji irsi olan bu böyük şəxsiyyətin həyat və yaradıcılığı kifayət qədər araşdırılmamışdır. Bu sahədə ciddi bir boşluq özünü göstərir. Mövcud tədqiqat işində biz məhz həmin boşluğu doldurmaq məqsədi izləmişik. Çünki pedaqoji irsimizin layiqli şəxsiyyətlərinin həyat və yaradıcılıq mirasını araşdırıb onu mütaliə və gələcək nəslə tanıtmaq pedaqogika elmimizin aktual problemlərindən biridir. Ona görə də biz "Qafur Rəşad Mirzəzadənin pedaqoji fəaliyyəti və maarifçilik görüşləri" adlı dissertasiya yazmağı zəruri saydıq.

**Tədqiqatın obyektini** Azərbaycanda pedaqoji fikrin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** görkəmli Azərbaycan pedaqoqu Qafur Rəşad Mirzəzadənin pedaqoji fəaliyyəti və maarifçilik görüşləri təşkil edir.

**Tədqiqatın məqsədi** XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji fikrin inkişafını şərtləndirən ictimai-mədəni və pedaqoji mühiti müəyyənləşdirməkdən, Q.R.Mirzəzadənin pedaqoji fəaliyyətinin və maarifçilik görüşlərinin xüsusiyyətlərini üzə çıxarmaqdan, onun böyüyən nəslin təhsil-tərbiyəsi ilə bağlı fikirlərini sistemləşdirməkdən, müasir mütərəqqi ideyalar üçün özül ola biləcək pedaqoji irsinin əsas mahiyyətini və istiqamətlərini aşkar etməkdən ibarətdir.

Bu məqsədə nail olmaqdan ötrü aşağıdakı **vəzifələr** həyata

keçirilmişdir:

– XIX əsrin ikinci yarısı və XX əsrin birinci yarısında Azərbaycanda ictimai-siyasi, elmi-mədəni və pedaqoji mühitin spesifik xüsusiyyətlərini müəyyənləşdirmək;

– Q.R.Mirzəzadənin həyatının və müəllimlik fəaliyyətinin əsas məqamlarını üzə çıxarmaq;

– Q.R.Mirzəzadənin uşaq mətbuatı və qiraət kitabları yaratmaq uğrunda mübarizəsini və bunun əməli nəticələrini şərh etmək;

– Q.R.Mirzəzadənin təhsilin və təlimin məqsədi, məzmunu, xalqın tərəqqisindəki rolu ilə bağlı fikirlərini sistemləşdirmək;

– Q.R.Mirzəzadənin böyüyən nəslin əxlaqi-mənəvi, etik, estetik, fiziki, əqli tərbiyə, həmçinin humanizm, vətənpərvərlik tərbiyəsi və s.lə bağlı fikirlərini analizdən keçirmək;

– Q.R.Mirzəzadənin stabil dərslik və dərs vəsaitləri yaratmaq uğrunda mübarizəsinin mahiyyətinə aydınlıq gətirmək;

– Q.R.Mirzəzadənin pedaqoji ideyalarının müasir dövr üçün əhəmiyyətini aşkara çıxarmaq.

**Tədqiqatın metodoloji əsasını** pedaqoj fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək, dəyişdirmək məqsədilə tətbiq olunan nəzəri müddəaların, prinsiplərin, metod və priyomların məcmusu təşkil edir.

**Tədqiqatın metodları:** nəzəri, tarixi və müqayisəli təhlil, problemlə bağlı elmi-pedaqoji, ədəbi-bədii, tarixi, fəlsəfi, etnoqrafik materialların, sənədlərin öyrənilməsi, sistemləşdirilməsi və ümumiləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada Q.R.Mirzəzadənin yaşadığı dövrün ictimai, siyasi, mədəni-pedaqoji mühitinin onun yaradıcılığına təsir imkanları aşkar edilmiş, onun maarifçilik ideyalarının əsas istiqamətləri müəyyənləşdirilmiş, təlim, təhsil, tərbiyə ilə bağlı nəzəri fikirləri təhlil və tədqiq olunmuş, uşaq mətbuatı və mütaliə kitablarının yaradılması uğrunda mübarizəsinin xarakterik xüsusiyyətləri üzə çıxarılmış, Azərbaycan pedaqoji fikrinin inkişafında oynadağı müstəsna rol müəyyənləşdirilmişdir. İlk dəfə olaraq məhz bu dissertasiyada Q.R.Mirzəzadənin məlum olmayan əsərləri, həmçinin məktəb dərslikləri, dərs vəsaitləri elmi-nəzəri istiqamətdə şərh edilmişdir. Coğrafiyaşünaslıq elmimizin və coğrafiyaya aid ilk dərsliklərin müəllifi kimi onun gördüyü işlər araşdırma predmetinə çevrilmişdir. Dissertasiyada ilk dəfə Q.R.Mirzəzadənin redaktoru və naşiri olduğu «Məktəb» jurnalının Azərbaycanda təhsil-tərbiyə nəzəriyyəsinin, pedaqoji həyatının

inkişafındakı yeri və rolu müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Q.R.Mirzəzadənin pedaqoji fəaliyyəti və maarifçilik görüşlərinin öyrənilməsi, təhsil və pedaqoji fikir tariximizi yeni materiallarla zənginləşdirir, həmin dövrün ictimai-mədəni və pedaqoji mühitinin daha dərindən öyrənilməsinə şərait yaradır. Q.R.Mirzəzadənin tədqiqata cəlb olunmuş əsərləri yeni istiqamətdə tədqiqatların aparılmasına əlverişli zəmin yaratmaqla həm də geniş perspektivlər açır.

**Tədqiqatın praktiki əhəmiyyəti**. Q.R.Mirzəzadənin həyatı və pedaqoji fəaliyyətinə həsr olunmuş mövcud dissertasiyanın materiallarından "Azərbaycan məktəb və pedaqoji fikir tarixi"nə dair dərslik və dərs vəsaitlərinin, müntəxəbatların, biblioqrafiyaların və mühazirə materiallarının tərtibində istifadə etmək olar. Bu material mədəniyyət tariximizi zənginləşdirmək baxımından da əhəmiyyətlidir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

– XIX əsrin ikinci yarısı, XX əsrin birinci yarısında Azərbaycanda pedaqoji fikirin inkişafını ictimai-siyasi, elmi-mədəni və pedaqoji mühit şərtləndirmişdir.

– XX əsrin əvvəllərində Azərbaycanda maarifçiliyi yeni istiqamətdə, yeni məzmunda inkişaf etdirənlərdən biri Q.R.Mirzəzadə olmuşdur.

– Azərbaycanda ən uzunömürlü uşaq mətbuatının yaradıcılarından biri, naşiri və redaktoru Q.R.Mirzəzadə olmuşdur.

– Onun yaratdığı dərsliklər və qiraət kitabları öz dövründə və özündən sonrakı dövrlərdə məktəblilər və ümuimiyyətlə, uşaqlar üçün yaranan kitabların hazırlanmasında mühüm zəmin rolunu oynamışdır.

– Azərbaycanda coğrafi təhsilin məzmununun müəyyənləşdirilməsi, ilk coğrafiya dərsliklərinin və dərs vəsaitlərinin müəllifi məhz Q.R.Mirzəzadə olmuşdur.

– Q.R.Mirzəzadənin təhsil-tərbiyə ilə bağlı tədqiqatları, elmi-nəzəri ideyaları böyüyən nəslin əxlaqi-mənəvi, etik, estetik, fiziki, əqli, humanizm və vətənpərvərlik tərbiyəsində mühüm rol oynamışdır.

– Q.R.Mirzəzadənin pedaqoji irsi və ideyaları müasir dövrümüz üçün də əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatla bağlı Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi elmi nəşrlərdə 13 məqalə çap olunmuş, problemlə bağlı müxtəlif elmi-nəzəri və praktik konfranslarda məruzələr edilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**«Giriş»**də tədqiqatın aktuallığı əsaslandırılır, obyekti, predmeti, məqsədi, vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, metodoloji əsası aydınlaşdırılır, müdafiəyə təqdim olunan müddəalar verilir.

Dissertasiyanın birinci fəsli **"Q.R. Mirzəzadənin yaşadığı dövrdə Azərbaycanda ictimai-siyasi və pedaqoji mühit"** adlanır. Fəslin ***"XIX əsrin ikinci yarısı və XX əsrin birinci yarısında Azərbaycanda ictimai-pedaqoji mühit"*** adlı ilk yarımfəslində əsaslandırılır ki, Qafur Rəşad Mirzəzadənin həyat və fəaliyyəti XIX yüzilliyin son onillikləri və XX əsrin I yarısı ilə bağlı olmuşdur. Bu, Azərbaycan xalqının ictimai-siyasi, ədəbi-mədəni və pedaqoji həyatında, maarif və maarifçilik idealarının təzahüründə və reallaşmasında əlamətdar bir epoxadır. Bu epoxa ictimai-siyasi, hüquqi, iqtisadi məzmununa görə iki mühüm mərhələyə bölünür. Bu mərhələlərin hər biri tarixin yaddaşına fərqli ictimai-iqtisadi formasiyalar kimi daxil olmuşdur. Birincisi monarxiya rejimini, feodalizmə məxsus əlamətləri özündə hifz edən, bunlardan yaxasını qurtarmayan kapitalizm, başqa sözlə, Çar Rusiyasının əsarət dövrü kimi xarakterizə olunur. İkincisi, 1920-ci ildən (Azərbaycanda) sonrakı mərhələ isə sosializm epoxası kimi müəyyənləşir. Bu formasiyaların xarakteri nə qədər fərqli olsa da, elm, mədəniyyət, məktəb, maarif sahəsində, pedaqoji həyatda və s. də ikinci mərhələdə baş verənlər əslində birincinin – Çar Rusiyası dövründə yaradılanların təməli üzərində yüksəlməli oldu və yüksəldi. Q.R.Mirzəzadə də məktəb, maarif və pedaqoji həyatımızın müsəlləh bir əsgəri kimi birinci mərhələdə qazandıqlarını və etdiklərini ikinci mərhələdə ləyaqətlə davam etdirdi, daha da zənginləşdirdi. Bununla da öz xalqı, onun məktəbi, maarifi, elmi qarşısında xidmətlərini imkan daxilində yerinə yetirmiş oldu. Yarımfəsildə Q.R.Mirzəzadənin yaşadığı dövrün səciyyəvi xüsusiyyətləri araşdırılır. Əsaslandırılır ki, XIX yüzilliyin 20-30-cu illərindən etibarən Azərbaycanda maarifçilik hərəkatı nəşət tapıb yayılmağa başladı. Bu hərəkatın əsas nümayəndələri yeni tipli məktəblərdə təhsil alanlar idilər. XIX əsrin II yarısında daha da genişlənən maarifçilik hərəkatı XX yüzilliyin əvvəllərində ictimai-mədəni və pedaqoji gerçəklikdə ciddi nüfuza, sirayətedici rola malik idi. Hərəkat öz ətrafında böyük və nüfuzlu bir ziyalı dəstəsini birləşdirdi. M.F.Axundov, M.Ş.Vazeh, H.Zərdabi, N.Vəzirov, Ə.Gorani, S.Ə.Şirvani, M.T.Sidqi, F.Köçərli, R.Əfəndiyev, M.Şahtaxtlı, S.S.Axundov, M.Mahmudbəyov, S.M.Qənizadə maarifçilik

ideyalarının coşğun təbliğatçıları idilər. “Bu hərəkatın səciyyəvi xüsusiyyətlərindən biri bu idi ki, o, geniş ictimai xarakter kəsb edirdi. Çünki xalq maarifi, məktəb məsələləri, yetişməkdə olan gənclərin taleyi cəmiyyətin bütün qabaqcıl adamlarını maraqlandırır və bu sahədə onların qarşısında müəyyən vəzifələr qoyurdu. Buna görə də bu ictimai-pedaqoji hərəkata cəmiyyətin qabaqcıl adamları – müəllimlər, maarifpərvərlər, şairlər, ədiblər, elm və incəsənət adamları qoşulurdular.”

XIX əsrin II yarısında maarifçilik hərəkatı öz missiyasını və əhatə dairəsini xeyli genişləndirdi. Diqqəti cəlb edən məsələlərdən biri də əlifba islahatı keçirmək, ərəb əlifbasını dəyişdirmək problemi idi. Türk dillərinin, o cümlədən Azərbaycan dilinin orfoqrafik-qrammatik qanun qaydalarına uyğun gəlməyən ərəb əlifbasının dəyişdirilməsi ana dilindəki təhsil prosesinin zəruri məsələlərindən biri idi.

Çar Rusiyasının Azərbaycanda həyata keçirdiyi təhsil siyasəti müxtəlif tipli məktəblərin yaranmasına gətirib çıxardı. Azərbaycanda qəza məktəbləri, kənd ibtidai məktəbləri, şəhər məktəbləri yarandı. Mədəni-pedaqoji mühitdə diqqəti cəlb edən məsələlərdən biri də “üsuli-cədid” hərəkatı idi. Təlim prosesində yeni tədris üsulunu rəhbər tutan bu hərəkatın müsəlman aləmindəki ilk cəfakeşi məşhur ziyalı, türkçü, milliyətcə Krım tatarı olan İsmayıl bəy Qasprالı idi. O, özü ilk dəfə belə bir məktəb açmış, onun üstünlüklərini sübut etmişdi. Məktəbdə təlim sovti üsulla, əyanilik prinsipinə əsaslanaraq aparılırdı. Dini elmlərdən əlavə bəzi dünyəvi fənlər də tədris edilirdi. “Üsuli-cədid” hərəkatı mütərəqqi Azərbaycan ziyalılarından ötrü bir örnəyə çevrildi. S.Ə.Şirvani Şamaxıda, M.M.Nəvvab Şuşada, M.T.Sidqi Ordubadda və Naxçıvanda bu tipdə məktəblər açdılar.

İki əsrin qovuşuğunda (XIX-XX əsrlər) maarifçilik hərəkatının intişarında, pedaqoji mühitin canlanmasında, məktəb və tədrisə aid problemlərin müzakirəsində və bəzən də həllində mətbuatın da mühüm rolu olmuşdur. Ciddi milli- tarixi dəyəri olan belə bir missiyanın mətbuat tariximizdə ilk təşəbbüskarı böyük ziyalı H.Zərdabi, milli mətbuatımızın ilk qaranquşu isə onun nəşr etdirdiyi “Əkinçi” (1875-1877) qəzeti oldu. “Əkinçi” qəzeti iki il sonra bağlandı. “Kaspi”, “Ziya”, “Ziyayi-Qafqaziyə”, “Kəşkül” və “Şərqi - rus” qəzetinin nəşrinə hər cür maneələr yaradılırdı. Onların fəaliyyəti Qafqaz Mətbuat İşləri Komitəsinin ciddi nəzarəti altında idi. Bu məsələ milli maarifçiləri ciddi narahat edirdi. Ona görə də İsmayıl xan Ziyadxanov tərəfindən 1906-cı ildə keçirilən Dövlət Dumasında mətbuatda senzor məsələsi müzakirəyə çıxarılmışdı.

Ümumiyyətlə, əsrin əvvəllərində məktəb və maarif sistemində kifayət qədər əhəmiyyətli, mütərəqqi hadisələr baş verdi. Köhnəliklə yenilik, konservatizmlə müasirlik arasındakı mübarizə ikincinin xeyrinə gücləndi, tədris şəbəkələri genişləndi. Pedaqoji gerçəklik yeni ideya və hadisələrlə zənginləşdi və s.

XX əsrin əvvəllərində məktəb və maarif şəbəkəsinin genişlənməsində, şagird kontingentinin çoxalmasında, təhsil və teatrla əlaqəli bəzi məsələlərin həllində xeyriyyə cəmiyyətlərinin də müəyyən rolu olmuşdur. Bu dövrdə Azərbaycanda "Nicat", "Səfa", "Səadət" və "Nəşri-maarif" kimi xeyriyyə cəmiyyətləri fəaliyyət göstərirdi. Cəmiyyətlər, əsasən, Bakı burjuaziyasının vəsaiti, ianələr, teatr tamaşalarından gələn gəlirlər və s. hesabına maliyyələşirdi. Cəmiyyətlərin maddi təminatında milli burjuaziyanın rolu daha böyük idi.

20-ci illərdə Azərbaycandakı təhsil müəssisələrinin tipi bu şəkildə idi. Ümumtəhsil məktəbləri (I dərəcəli məktəblər; ikinci dərəcəli məktəblər; yeddillik məktəblər; doqquzillik məktəblər; fəhlə fakültələri). Kadrlar hazırlayan aşağı səviyyəli məktəblər (fabrik-zavod şagirdliyi məktəbləri; kəndli gənclər məktəbləri); orta və ali ixtisas məktəbləri (texnikumlar, ali məktəblər).

Təbii ki, açılan məktəblərə, tədris olunan fənlərə proqramlar, dərsliklər, tədris və metodiki vəsaitlər və s. lazım idi. Qafur Rəşad o zaman üçün coğrafiya fənni üzrə ən yaxşı müəllimlərdən və mütəxəssislərdən sayılırdı. O, həmin ixtisas üzrə o dövrdə ən məhsuldar dərslik müəllifi kimi diqqəti cəlb edir. İctimai-pedaqoji fikrimizin, coğrafiyaşünaslıq elmimizin, təhsilimizin inkişafında, tədris ocaqlarımızda coğrafiyanın bir fənn kimi formalaşmasında, bu fənn üzrə məktəb dərsliklərinin və tədris vəsaitlərinin yaradılması və təkamülü tarixində Q.R.Mirzəzadənin pedaqoq, alim və mütəxəssis kimi layiqli yeri və mövqeyi vardır.

"***Qafur Rəşad Mirzəzadənin həyatı və müəllimlik fəaliyyəti"*** adlı ikinci yarımfəsildə Qafur Rəşad Mirzəzadənin 59 illik həyatının mühüm məqamları təhlilə cəlb olunur. Əsaslandırılır ki, Qafur Rəşad 1884-cü ildə may ayının 6-da Şamaxı şəhərində doğulmuşdur. Onun əsl adı Qafur, atasının adı Ələkbərdir. "Rəşad" onun təxəllüsüdür. Qafurun atası Ələkbər Şamaxıda əsnaf silkinə mənsub sənətkar idi. 1891-ci ildə Qafurun yeddi yaşı olarkən atası onu Şıxminaz məhəlləsindəki mollaxanaya qoyur. Onun mollaxana təhsili üç il çəkir. 1894-cü ildə on yaşlı Qafur mollaxana təhsilini başa vurur. Burada ərəb əlifbası, çərəkə, ibtidai şəkildə Quranı yazıb oxumaq öyrədilirdi. Beləliklə, Q.Rəşad mollaxanada ancaq ibtidai

dini bilik əldə edə bilir. Bu zaman Şamaxıda altı illik şəhər məktəbi fəaliyyət göstərirdi. Məktəbdə təhsil rus dilində aparılırdı. 1894-cü ildə atası Ələkbər kişi onu şəhər məktəbinə qoyur. Şəhər məktəbi daha çox ödənişli idi. Ələkbər kişi də əvvəlki bir neçə ildə oğlunun təhsili üçün pul ödəyirdi. Ancaq sonralar onun maddi vəziyyəti çətinləşdi. Ödəniş etməyə maliyyə imkanı yol vermədiyindən oğlunu təhsildən ayırmaq fikrinə gəldi. Bu zaman Qafurun yaxşı oxuması onun köməyinə yetişdi. Belə ki, yaxşı oxuyan şagirdlərə bəzi hallarda güzəştlər edilir, onlar dövlət hesabına təhsil alırdılar. Deyilən güzəşt Qafura da tətbiq edilir. O, 1901-ci ildə altısinifli şəhər məktəbini müvəffəqiyyətlə oxuyub başa vurur. Qafur imtahan vermək üçün 1901-ci ilin oktyabr ayında Bakıya gəlir. 1901-ci ilin oktyabr ayında komissiya qarşısında imtahan verib müəllimlik hüququ qazanan Qafur Şamaxı qəzasının Lahıc kənd məktəbinə müəllim təyin olunur. Lakin Lahıca gəlməzdən əvvəl o, rəsmi göstəriş üzrə təxminən 3 aya qədər Şamaxı şəhər məktəbində müəllimlik təcrübəsi keçir. Pedaqoji praktikanı Q.Rəşad yaxın dostu, görkəmli müəllim, ziyalı, tanınmış təbiət və coğrafiya müəllimi Camo Cəbrayılbəyli ilə birlikdə keçirdi. Elə həmin günlərdə, yəni 1902-ci ilin yanvarında Şamaxıda güclü zəlzələ baş verir. Zəlzələdən cəmi bir neçə gün sonra o, Lahıca yola düşür. Əvvəl Basqal kəndinə gəlib oradan Lahıca yollanır. 1902-ci ilin fevral ayından etibarən Lahıcda müəllimlik edir. Bu, onun pedaqoji fəaliyyətinin 2-3 aylıq pedaqoji təcrübədən sonrakı rəsmi başlanğıcı idi.

Q.Rəşad Lahıcda 1908-ci ilin əvvəllərinə qədər işlədi. Bu müddətdə o, əsaslı pedaqoji təcrübə qazandı. Lahıc həyatı Qafurun bir pedaqoq kimi kamilləşməsində əhəmiyyətli rol oynayır. Öz işinə məsuliyyətlə yanaşan müəllim daim bilik və bacarığını təkmilləşdirir. Q.R.Mirzəzadə 1907-ci ilin sonunda "Nəsri-maarif" cəmiyyəti tərəfindən Bakıya dəvət olunur. Cəmiyyətin Bakıda açdığı "Darülmüəllimini-islam" məktəbinə müəllim təyin olunur. Bu, müəllim kadrları hazırlayan seminariya tipli bir məktəb idi. 1908-ci ilin əvvəlindən Qafur əmrlə buraya ana dili müəllimi təyin olunsa da, ilk vaxtlar şəriət dərslərini tədris edir. Onun bundan sonrakı həyatı, əsasən, Bakı mühiti ilə bağlı olur.

1908-ci ildə Qafur "Ayineyi millət. Oyanız qardaşlar" adlı publisistik əsərini yazır. Q.Rəşad erudisiyalı bir müəllim kimi yaxşı dərk edirdi ki, ana dilli tədris müəssisələrinin ehtiyaclarını ödəməkdən ötrü ən zəruri faktorlardan biri milli dildə dərsliklər yazmaqdır. Bu sahədə ciddi boşluq vardır. Pedaqoqların üzərinə bu boşluğu doldurmaq mənasında zəruri məsuliyyət düşür. Ona görə də Mirzəzadə bu işin əməli icrasının cəfakeş

təşəbbüsçülərindən oldu. 1909-cu ildə o, “Qafqaz coğrafiyası”, 1910-cu ildə isə “Hesab məsələləri” dərsliklərini yazdı.

Bu yönümdə fəaliyyətini məhsuldar şəkildə davam etdirən pedaqoqun iki il sonra, yəni 1912-ci ildə yeni dərsliyi işıq üzü gördü. Bu “Ümumi coğrafiya. I hissə” idi. Kitab ibtidai, rüşdi və edadi məktəblərdə tədris üçün nəzərdə tutulmuşdu. Dərsliyin ömrü xeyli uzun olmuşdu. Belə ki, 20 ilə qədər həmin dərslikdən ana dilli məktəblərdə istifadə edilmişdi. 1911-ci ildə Q.R.Mirzazadə uşaqlar üçün “Məktəb” jurnalı çap etdirməyə başlayır. O, jurnalın həm naşiri, həm də redaktorlarından biri idi.

1908-1912-ci illər arasında haqqında danışdığımız müəllifin beş kitabı işıq üzü görür: “Ayineyi-millət. Oyanız qardaşlar” (1908); “Qafqaz coğrafiyası” (1909;1910); “Hesab məsələləri” (1910); “Rəhbəri – sərf” (1910); “Ümumi coğrafiya” (1912). Birincisini çıxmaqla sonrakı dörd kitab məktəblilər üçün yazılmış tədris kitablarıdır. 1916-cı ildə Q.Rəşad Bakı şəhərindəki İkinci realnı məktəbə müəllim təyin olunur. O, burada ana dilinin tədrisi ilə məşğul olur. Onun həmin məktəbdəki fəaliyyəti 2 il çəkir.

1918-ci ildə Azərbaycan Demokratik Cumhuriyyəti dövründə Mirzəzadə iş yerini dəyişməli olur. Savadlı və təcrübəli müəllim kimi o, Bakı Birinci realnı məktəbinə dəvət alır və burada coğrafiya fənnini tədris etməyə başlayır. Onun həmin məşhur məktəblə bağlılığı bir neçə il davam edir. Sonralar “Bakı Darülmüəllimini” adlanan Bakı Birinci realnı məktəbi texnikum statuslu təhsil ocağı kimi formalaşdı. Onun nəzdində ibtidai siniflər də mövcud idi. Azərbaycan təhsili tarixində “Abdulla Şaiqin nümunə məktəbi” kimi məşhurlaşan bu tədris təsisatı milliləşən ilk təhsil müəssisələrimizdən idi.

1921-ci ildə Bakıda üçillik Azərbaycan Ali Pedaqoji İnstitutu (indiki ADPU) açılarkən Q.Mirzəzadə ali təhsil almaq məqsədilə həmin instituta daxil olur. 1921-1922-ci illərdə təhsil müddəti iki il olan həmin maarif ocağında oxuyur. 1923-cü ildə ADU-nun Şərqşünaslıq fakültəsindəki dərslərdə azad dinləyici kimi iştirakçı olub öz biliyini artırmağa səy göstərir. Amma bununla kifayətlənmir. 1923-cü ildə Azərbaycan Politexnik İnstitutunun iqtisadiyyat fakültəsinə daxil olur və ikinci ali təhsil almaq məqsədi güdür. Həmin ali təhsil ocağını 1927-ci ildə müvəffəqiyyətlə bitirir.

Ali təhsil aldığı 6 illik bir dövrdə də o, müəllimlik peşəsindən, həmçinin pedaqoji həyatda tədris-təlim işləri ilə məşğul olmaqdan ayrılmır. Bundan əlavə coğrafiyaya dair bir neçə dərslik yazır. Həmin dərsliklər milli məktəblərin müxtəlif sinifləri üçün nəzərdə tutulmuşdu. Qafur Rəşadın 20-

ci illərdə Azərbaycan məktəbləri üçün qələmə aldığı coğrafiya dərsliklərinin sayı heç də az deyil. Məsələn: “Coğrafiya” (2-ci qism. Edadi və Rüşdi məktəblərinin 2-ci sinfi üçün) 1920; “Coğrafiya” (1-ci qism. 1-ci dərəcəli məktəblərin 4-cü sinfi üçün), 1920; 1922; 1923; 1924; 1925; “Coğrafiya” (2-ci qism), 1924; “Coğrafiya” (3-cü qism), 1924; “Coğrafiya” (4-cü qism. 2-ci dərəcəli məktəblərin 2-ci sinifləri üçün), 1923; “Coğrafiya” (I hissə), 1926; “Coğrafiya” (2-ci qism. Zəhmət məktəbləri üçün tədris və pedaqoji kitab), 1927; “Ümumi coğrafiya” (I hissə. Ali tipdə savad məktəbləri üçün tərtib olunan məramnaməyə müvafiq yazılmışdır), 1924 və s.

Sovet hökuməti qurulduqdan az sonra “A.Şaiqin nümunə məktəbində müəyyən dəyişikliklər baş verir. Bu, dəyişiklik həm məktəbin statusu, həm fənlər, həm də kadrlarla bağlı idi. Məktəb yenidən Pedaqoji Texnikum şəklində təşkil olunur.

Deməli, 20-ci illərdə Qafur Rəşad ictimai-pedaqoji hərəkatda çoxistiqamətli, işgüzar və məhsuldar fəaliyyət göstərirdi. Bir tərəfdən ali təhsil alır, bir tərəfdən dərsliklər yazır, digər tərəfdən müəllimliklə məşğul olurdu. Bundan başqa o, Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən coğrafiya fənni üzrə dərs proqramları hazırlayan komissiyanın üzvü kimi bu komissiyanın işində aktiv surətdə iştirak edirdi.

Qafur Rəşad Azərbaycan ali məktəblərində coğrafiya fənnindən ana dilində mühazirə deyən ilk müəllimlərdən olmuşdur.

20-ci illərin sonu və 30-cu illərin əvvəllərində o, bir müddət Bakı hərbi məktəbində və Bakının bəzi orta məktəblərində işləyir. 1929-cu ildə Zaqafqaziya Pambıqçılıq İnstitutuna dəvət olunur. Burada “İqtisadi coğrafiya” fənnindən mühazirələr oxuyur. 1932-ci ildə Bakıda yenicə açılmış Sənaye Akademiyasına (indiki Azərbaycan Dövlət İqtisad Universitetinə) müəllim təyin olunur. 1937-ci ilə qədər həmin ali məktəbdə fəaliyyət göstərir.

1932-ci ildə Q.Rəşadın “Coğrafiyadan iş kitabı” adlı iki metodik vəsaiti çap olunur. 3-cü və 4-cü qruplar üçün nəzərdə tutulmuş və latın əlifbası ilə nəşr edilən həmin iş kitablarını müəllif coğrafiya müəllimi B.Əsgərovla birlikdə yazmışdır.

Onu da deyək ki, Q.R.Mirzəzadənin 20-ci illərdə coğrafiyaya dair yazdığı dərsliklərdən, əsasən, 1932-33-cü tədris illərinə qədər istifadə edilir. Həmin illərdən etibarən proqram və tədrisin yeni əsaslarla qurulması ilə əlaqədar bir sıra dərsliklər yenisi ilə əvəz olunur. Mirzəzadənin dərslikləri də tədris sahəsində öz ömrünü başa vurur.

Məlumdur ki, 1928-ci ildə Azərbaycan SSR-də ərəb qrafikası latın əlifbası ilə əvəz olundu. 1939-cu ildə yeni əlifba dəyişikliyi baş verdi. Q.Rəşadın da 1928-ci ilə qədərki dərsliklərinin əksəriyyəti ərəb əlifbası ilə çap olunmuşdur.

Qafur Rəşad bir müəllim kimi nə qədər fədakar idisə, bir alim kimi də o qədər yorulmaz və zəhmətkeş idi. O, ömrünün son çağlarına qədər əməli və zehni işdəki fəaliyyət ahəngini hifz etmişdir. Həyatının son illərində "Meteorologiya elementləri", "SSRİ-nin iqtisadi coğrafiyası", "Lahıcın iqtisadi səciyyəsi" və "Məktəbdə xəritə üzərində iş" adlı əsərlərini yazmış, lakin müharibənin başlanması ilə əlaqədar həmin əsərlərin çapı mümkün olmamışdı.

1941-ci ildə o, Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəb İnstitutuna elmi işçi vəzifəsinə təyin olunur. Eyni zamanda müəllimlik fəaliyyətini də davam etdirir. 1943-cü ildə Azərbaycan K(b)P-nin göstərişi ilə təbliğatçı kimi anadan olduğu Şamaxı rayonuna göndərilir. Şamaxıda o xəstələnir. Buna görə də Bakıya qayıtmalı olur. Müalicə məqsədilə paytaxta gətirilir. Lakin onun səhhəti getdikcə pisləşir. 1943-cü ildə noyabr ayının 26-da o, Bakıda vəfat edir.

***"Q.R.Mirzəzadənin uşaq mətbuatı və qiraət kitablarının yaradılması uğrunda mübarizəsi"*** adlı üçüncü yarımfəsildə Q.R.Mirzəzadənin uşaq mətbuatı və qiraət kitablarının yaradılması uğrunda mübarizəsi təhlilə cəlb edilir.O, hər iki istiqamətdə uğurlara imza atmış, istər uşaq mətbuatımızın tarixində, istərsə də uşaqlar üçün sinifdənkənar vaxtlarda oxumaqdan örtü mütaliə kitablarının ərsəyə gətirilməsində, bu arenada ədəbi-pedaqoji irsimizi zənginləşdirməkdə böyük işlər görmüşdür.

Q.R.Mirzəzadənin bir naşir, redaktor və müəllif kimi 10 ilə qədər xidmət göstərdiyi "Məktəb" jurnalı yaşayıb fəaliyyət göstərdiyi ictimai-mədəni və pedaqoji mühitin prioritet problemlərindən idi. Böyüməkdə olan nəslin təlim-tərbiyəsində, məktəblilərin mənəvi ehtiyaclarının ödənilməsində, məktəb və maarif ideyalarının intişarında uşaq mətbuatının ciddi əhəmiyyət kəsb etdiyini dərk edən maarif münəvvərlərimiz bu işin təşkili və reallaşması yolunda canfəşanlıqla səy göstərirdilər. XIX əsrin sonu və XX yüzilliyin əvvəllərində Azərbaycan ziyalıları bu yönümdə ciddi cəhdlə çalışırdılar. Uşaq mətbuatının yoxluğu onları əsaslı şəkildə narahat edir və düşündürürdü.

"Məktəb" jurnalı mətbuat, ictimai-ədəbi, pedaqoji fikir tariximizin, nəhayət, Qafur Rəşad yaradıcılığının möhtəşəm abidəsidir. Bu abidənin meydana çıxması və fəaliyyəti heç də asan başa gəlməmişdir. Jurnalın nəşri

üçün ilk növbədə maddi vəsait lazım idi. Bunun üçün Q.R.Mirzəzadə bir neçə tacirə və imkanlı şəxsə müraciət etsə də, onun təşəbbüsü fayda vermədi. Belə olduqda o, bir qədər borc tapdı. Həmçinin "Qafqaz coğrafiyası" kitabının satışından əldə etdiyi az-çox qazancı "Məktəb" adlı bir kitab mağazası açmağa yönəltdi. Mağazanı onun kiçik qardaşı Ağa Kərim Mirzəzadə idarə edirdi. Qafur buradan gələn gəliri jurnalın nəşrinə yönəltdi.

Təbii ki, məcmuə özünü maliyyələşdirə bilmirdi. Çünki onun abunəçilərinin sayı yetərincə deyildi. Naşir kitab mağazasından gələn gəlirin müəyyən hissəsini jurnalın nəşrinə yönəldir, onun bağlanmaması yolunda əsl vətəndaş qeyrəti ilə çalışırdı.

"Məktəb"in ilk nömrəsi 1911-ci ildə noyabr ayının 29-da işıq üzü gördü. Həmin vaxtdan etibarən 1920-ci ilin martına qədər müxtəlif illərdə onun müxtəlif sayda nömrələri çap olundu. Belə ki, 1911-ci ildə onun 3, 1912-ci ildə 19, 1913-cü ildə 22, 1914-cü ildə 20, 1915-ci ildə 15, 1916-cı ildə 11, 1917-ci ildə 2, 1918-ci ildə 3, 1920-ci ildə 3 nömrəsi nəşr edildi. Bolşeviklərin gəlişi və sovet hökumətinin yaranması ilə jurnal öz fəaliyyətini dayandırmalı oldu. Doğrudur, 1925-ci ildə Şərif Manafovun redaktorluğu ilə yeni bir "Məktəb" məcmuəsinin nəşrinə təşəbbüs edildi. Lakin həmin jurnalın cəmi 1 nömrəsi çıxdı və o, naməlum səbəbdən öz fəaliyyətini dayandırdı. Həmin nömrədə Qafur Rəşadın iki məqaləsi çap olunmuşdu.

1911-ci ildə nəşrə başlayan "Məktəb" jurnalının naşir və redaktorları Q.R.Mirzəzadə və "Nəşri-maarif" məktəbinin müəllimi Əbdürrəhman Əfəndizadə Tofiq (1884-1918) idi. 1913-cü ilin 1 iyununa (№10) qədər onlar hər ikisi hər iki vəzifəni icra etmişdilər. Göstərilən tarixdən 1916-cı ilin martına qədər (№1) naşir hər iki şəxs, redaktor isə yalnız Q.R.Mirzəzadədir. 1916-cı ilin mart ayından başlayaraq 1920-ci ilin martına (№3), yəni jurnal bağlanana qədər Q.Rəşad məcmuəyə tək rəhbərlik etmiş, həm onun naşiri, həm də redaktoru olmuşdur. İlk nömrədə onlar "İdarədən" adlı redaksiya yazısında öz məqsədlərini bu şəkildə ifadə edirdilər: "Bizim "Məktəb" məcmuəsini nəşr etməkdə məqsədimiz millət balalarının hüsn-əxlaq və məlumatlı olmalarına acizanə bir xidmətdir." (95, 1911, №1, s.1) "Məktəb" uşaqlar üçün yalnız elmi, bədii və ictimai məlumat mənbəyi deyildi. O həm də şagirdlərdən ötrü metodiki mənbə, tədris vəsaiti, təhsil və təlimlə əlaqəli qaynaq rolunu oynayırdı. Məcmuənin məqsədi millət balalarına həm Azərbaycanın, həm Türk dünyasının, həm Şərqin, həm qərbin, həm antik dünyanın, həm də müasir dövrün məşhur

zəka və qələm sahiblərini, ədib, filosof və hünərvərlərini tanıtmaqdan ibarət idi. Yarımfəsildə məktəblilər üçün qiraət kitablarının yaradılmasında Q.Rəşadın xidmətlərinə xüsusi diqqət yetirilir. Əsaslandırılır ki, o, məktəblilər üçün qiraət kitabları ərsəyə gətirib nəşr etdirməkdən ötrü tərcümə əsərlərinə üstünlük verdi. Belə bir təşəbbüs onun bir müəllim-tərcüməçi kimi yetişməsinə əhəmiyyətli təsir göstərdi.

Q.Rəşadın uşaqlar üçün tərcümə və nəşr etdirdiyi qiraət kitabları aşağıdakılardan ibarətdir:

1. Qəryədə. Üç sual (L.N.Tolstoydan tərcümə edən Mirzəzadə Q.R.). Bakı, 1909, 18 s.
2. Baha oturur (L.N.Tolstoydan tərcümə edən Mirzəzadə Q.R.). Bakı, 1910, 14 s.
3. Çəməndə, tülkü ilə qurd və Yeddiyaşar. Hekayələr. (A.N.Afanasyevdən tərcümə edən Mirzəzadə Q.R.). Bakı, 1911, 21 s.
4. Barmaq boylu uşaq. (L.N.Tolstoydan tərcümə edən Mirzəzadə Q.R.). Bakı, 1911, 14 s.
5. İnsanlar nə ilə yaşayırlar. (L.N.Tolstoydan tərcümə edən Mirzəzadə Q.R.). Bakı, 1912, 46 s.
6. Dövlətli sərçə və dişli siçan. Bakı, I təb.-1913; II təb.-1916; III təb.-1918
7. İki yol-iki yoldaş. (P.N.Polevoydan tərcümə edən Mirzəzadə Q.R.). Bakı, 1913, 59 s.
8. Bir-birinizə məhəbbət ediniz. (L.N.Tolstoydan tərcümə edən Mirzəzadə Q.R.). Bakı, 1907, 21 s.
9. Hindistan kəndlilərinin halı. (Q.M.Troyanskidən tərcümə edən Mirzəzadə Q.R.). Bakı, 1920, 16 s.

Bu əsərlərdən "Dövlətli sərçə və dişli siçan" bəzən tərcümə, bəzən də müəllifin orijinal hekayəsi kimi təqdim edilir. Q.Rəşad bir mütərcim kimi də ədəbi-pedaqoji irsimizin zənginləşməsi naminə öz bacarığını əsirgəməmişdir.

Dissertasiyanın ikinci fəsli "**Qafur Rəşad Mirzəzadənin pedaqoji irsində təhsil-tərbiyə problemləri**" adlanır.Fəslin "***Q.R.Mirzəzadənin təhsilin məzmunu barədə fikirləri. Q.Rəşad və məktəb dərslikləri***" adlı birinci yarımfəslində əsaslandırılır ki, Q.Rəşadın bir publisist, uşaq mətbuatının naşiri və redaktoru, mütərcim, dərsliklər müəllifi, fədakar müəllim, erudisiyalı və millətsevər pedaqoq, səviyyəli ziyalı kimi istər nəzəri düşüncələri, istərsə də əməli işi qidasını onun maarifçilik baxışlarından alır. Daha doğrusu, onun maarifçilik ideyaları bir ziyalı-

vətəndaş və pedaqoq kimi bütün fəaliyyətinə stimul və istiqamət verir. Sonrakı əsərləri ilə yanaşı ilk mətbu əsəri «Ayineyi-millət. Oyanız, qardaşlar» müəllifin maarifçi baxışlarını, xalq, onun maariflənməsi, təhsil, tədris və tərbiyə, milli inkişafda maarif və məktəbin rolu və s. vacib məsələləri özündə ehtiva edir. Bu əsər Q.Rəşadın maarifçilik düşüncələrinin və fəaliyyətinin nəzəri məramnaməsi, əsas istiqamət proqramıdır. Müəllif bu əsərində bir maarifçi kimi millətin, bütün islam qövmlərinin geriliyinə, tənəzzül, cəhalət və nadanlığın səbəblərinə ayna tutmaq, bu geriliyi doğuran səbəbləri aydınlaşdırmaq, nəhayət, ondan çıxış yolu göstərmək məqsədi izləyir, milləti oyanışa, tərəqqi yoluna səsləyir və bu yolun ancaq elm, məktəb və maarif yolu olduğunu aydın dəlillərlə sübut edir.

Q.R.Mirzəzadə zəngin pedaqoji irs qoyub getmişdir. Həmin irsin mühüm hissəsini dərsliklər, dərs vəsaitləri, metodiki və tədrislə əlaqəli iş kitabları təşkil edir.

1910-cu ildə Qafurun tədrislə əlaqəli üç kitabı işıq üzü görür: «Hesab məsələləri»; «Rəhbəri-sərf»; «Qafqaz coğrafiyası». Göründüyü kimi kitablar bir-biri ilə sıx bağlılığı olmayan fərqli fənlərə həsr olunmuşdur. Belə bir amil müəllifin şəxsiyyətindəki bir neçə önəmli cəhəti qabarıq şəkildə sübut edir: gənc müəllimin məktəb və şagirdlərin ehtiyaclarını yaxşı anlamasını; müxtəlif elmlərə aid geniş erudisiyaya, kifayət qədər biliyə malik olmasını; zəhmətkeşliyini və s.

Q.R.Mirzəzadənin 1910-cu ildə çap olunan digər bir kitabı «Rəhbəri-sərf» adlı qrammatika dərsliyidir. M.Axundovun da həmmüəllif olduğu bu dərslik 1918-ci ildə təkrar nəşr edilmişdir. Bu, sırf dərslik tipində qələmə alınmış tədris vəsaitidir. «Rəhbəri-sərf» izafəti «Morfologiyaya dair əsas qaydalar» («Morfologiyaya dair rəhbər kitab») anlamını verir. Ancaq dərsliyin əsas qismini morfologiyaya (nitq hissələrinə) aid qaydalar təşkil etsə də, burada müəyyən qədər dilimizin fonetikasına və sintaksisinə aid məsələlərə də yer verilir. Ümumiyyətlə, «Rəhbəri-sərf» Azərbaycan dilinin, əsasən, morfologiyasını və qismən də fonetik və bəzi sintaktik qaydalarını əhatə edən məzmunlu orta məktəb dərsliyidir. Kitab ibtidai siniflər üçün yox, nisbətən yuxarı sinif şagirdlərinin səviyyəsinə uyğundur və onlar üçün nəzərdə tutulmuşdur.

Müəllifin coğrafiyaya aid ilk dərsliyi 1909-cü ildə işıq üzü görən «Qafqaz coğrafiyası»dır. «Azərbaycan dilində ilk coğrafiya dərsliyi» hesab olunan bu kitab milli dildə «çap edilən əvvəlki coğrafiya kitablarından xeyli fərqlənirdi. Çünki burada verilmiş xəritələr və şəkillər coğrafiya

dərsliyi üçün qiymətli idi. Oxucu burada Qafqazın coğrafiya xəritəsi, onun bəzi mənzərələri ilə tanış olur. Alimin 1920-ci ildə çap üzü görmüş «Coğrafiya - I qism» (1-ci dərəcəli məktəblərin 4-cü sinfinə məxsusdur) dərsliyi 1923 və 1924-cü illərdə təkrar nəşr edildi. Hər dəfə nəşr olunduqca müəllif kitabı daha da təkmilləşdirirdi. Əgər 1920-ci il nəşri 190 səhifə idisə, 1924-cü il nəşri 275 səhifədən ibarət idi. Dərslikdə alimin əməyini, fənnə və problemə həssas münasibətini, şagirdlərə nəyi çatdırmağın zərurətini dərk etmək bacarığını, dərsliyin əhatə dairəsinin genişliyini və elmiliyini elə ilk baxışda onun mündəricatı da diktə edir.

Q.R.Mirzəzadənin dərslikləri içərisində Azərbaycana ən çox yer ayrılan 1924-cü ildə Azərnəşr tərəfindən çap olunan «Coğrafiya – II qism» dərsliyidir. Ümumiyyətlə, bu dərslik o zamankı SSRİ-nin (Sosialist Şura Cümhuriyyətləri) təşkil edən respublikaların siyasi-inzibati və iqtisadi coğrafiyasına həsr olunmuşdur. Ancaq ümumi həcm bölgüsündə Azərbaycana daha çox yer ayrılmışdır. Q.R.Mirzəzadənin 20-ci illərdə meydana gəlmiş dərsliklərindən biri də «Coğrafiya – III qism»dir. 1924-cü ildə çap edilmiş bu tədris vəsaiti 2-ci dərəcəli məktəblərin 1-ci qrupu üçün nəzərdə tutulmuşdur. Onun titul vərəqəsində də buna aid qeyd vardır: «2-ci dərəcə məktəblərin 1-ci qrupuna məxsusdur». «Coğrafiya – IV qism» kitabı 1923-cü ildə işıq üzü görür. Əsər 1925-ci ildə yenidən nəşr olunur. 1923-cü il nəşrinin titul səhifəsində belə bir qeyd vardır: «Dördüncü qism. 2-ci dərəcəli məktəblərin 2-ci sinfi üçün». 1925-ci il nəşrində həmin qeyd çıxarılmışdır.

«Coğrafiya – IV qism» butövlükdə Avropa qitəsinə və bu qitədə yerləşən ölkələrin fiziki, siyasi-inzibati və iqtisadi coğrafiyasını əhatə edir. Bununla belə burada həmin məmləkətlərin tarixi coğrafiyasına aid də bəzi məlumatlarla rastlaşırıq.

Beləliklə, Q.Rəşadın naşirlik, alimlik, müəllimlik və pedaqoji-maarifçilik fəaliyyəti ciddi vəhdətdə özünü təzahür etdirir.

"***Q.R.Mirzəzadə təlim haqqında***" yarımfəslində Q.R.Mirzəzadənin pedaqoji irsində mühüm yer tutan təlimlə bağlı fikirləri təhlil olunur.

Müəllifin təlimlə bağlı görüşləri həm onun mətbu məqalələrində, dərsliklərə yazdığı ön sözlərdə, həm də konkret olaraq hazırladığı dərsliklərdə öz elmi-pedaqoji ifadəsini tapır. Əgər məqalələrində o, təlim və onun mahiyyəti, prinsipləri, şagirdlərə bilik öyrətməyin vasitələri, təlimdə düzgün metodlar seçməklə təhsil prosesində tərəqqiyə nail olmağın üsulları barədə nəzəri baxışlarını ifadə edirsə, tədris vəsaitləri hazırlayarkən artıq işin praktiki göstəricilərini ortalığa qoyur. Onun istər dərsliklərində, istərsə

də tədrislə bağlı iş kitablarında təlim prosesini yaxşı bilən, yüksək pedaqoji ustalığa malik, təhsil və tədris məsələlərini mükəmməl bilən bir müəllimin şəxsiyyətini görürük.

***"Q.R.Mirzəzadə tərbiyə haqqında"*** adlı üçüncü yarımfəsildə Q.R.Mirzəzadənin yaradıcılığında mühüm yer tutan tərbiyə məsələlərinin tədqiqi təşkil edir. O mənada yox ki, o, tərbiyənin ayrı-ayrı konkret sahələri ilə əlaqəli sırf pedaqoji yönümlü əsərlər yazmışdır. O mənada ki, Q.Rəşad ömrünün böyük bir hissəsini müəllimlik fəaliyyətinə həsr etmiş, deməli, şagirdlərin təhsili və təlimi ilə yanaşı onların tərbiyəsi ilə də məşğul olmuşdur. İkincisi, onun «Ayineyi-millət» əsərində və dərsliklərinin ümumi ahəngində şagirdlərə hər hansı elmə aid bilik verməklə yanaşı onları tərbiyə etmək ruhu da aydın görünür. Seçilən və uşaqlara çatdırılan mövzular birbaşa olmasa da, dolayısı ilə onların tərbiyəsinə xidmət edir. Üçüncüsü, «Məktəb» jurnalı XX əsrin əvvəllərinin ən tərbiyəvi yüklü mətbuat orqanlarından idi. Naşirlər burada tərbiyəvi ruhlu əsərlərin dərcinə xüsusi diqqət yetirirdilər. Dördüncüsü, Q.Rəşadın sırf tərbiyəvi fikir ifadə edən məqalələri də vardır. Beşincisi, pedaqoqun tərcümə yaradıcılılığına diqqət yetirsək, görərik ki, onun tərcümə etdiyi əsərlər bütünlüklə əxlaqi-didaktik ruhdadır. Müəllif məhz böyüməkdə olan nəslin tərbiyəsinə xidmət məqsədilə həmin əsərləri tərcümə və nəşr etdirmişdi.

Q.Rəşadın pedaqoji irsində mühüm yer tutan vətənpərvərlik hissi, istiqlal ideyası, azadlıq duyğusu, əxlaqi və mənəvi saflıq, mübarizlik, çalışqanlıq, zəhmətsevərlik tərbiyəsi yarımfəsildə əhatəliliyi ilə təhlil edilir. Əsaslandırılır ki, Q.Rəşad cəhalətdən qurtuluşun, inkişafa nail olmağın mühüm faktorlarından biri kimi tərbiyəyə xüsusi önəm verir. Onun fikrincə inkişafın stimulverici iki əsas amili vardır: təhsil və tərbiyə. Bunlarsız insanı və ümumən cəmiyyəti kamal mərtəbəsinə yüksəltmək mümkün deyil. Bu münasibətlə müəllif yazır: «Hər halda cəhalətdən xilas olmağa səy etməliyiz. Cəhalət aləmi-insaniyyəti xaraba qoyan hər cür fənalıqların yuvasıdır. Həyatın islahı, insaniyyətin kamala yetməsi üçün təhsil və tərbiyə sayəsində insanlar iktisabi-sərvət və saman edib izzət və şərafət sahibi olurlar. Fikirlərini vüsətləndirib kəsrəti-məlumat ilə zehnlərini parlandırırlar». Müəllif cahil, tərbiyəsi olmayan insanları qəlbi ölmüş məxluqlar hesab edir. Tərbiyə olmadan mərifət sahibi olmaq mümkün deyil.

Q.Rəşad bir tərbiyəçi kimi də öz dəyərli irsi ilə pedaqoji fikir tariximizi zənginləşdirmişdir.

Deyilənləri yekunlaşdıraraq belə bir **nəticəyə** gəlmək mümkündür:

1. XIX yüzilliyin II və XX yüzilliyin I yarısı Azərbaycan xalqının ictimai-siyasi, ədəbi-mədəni, elmi və pedaqoji həyatında maraqlı, zəngin, keşməkeşli, mürəkkəb bir dövrdür. Bu dövrdə deyilən istiqamətlərdə ciddi irəliləyiş və yüksəliş baş verir, həmin irəliləyiş və yüksəlişi istiqamətləndirən, xalqımızın tarixində müəyyən iz, ədəbi-mədəni, elmi və pedaqoji miras qoyub gedən görkəmli şəxsiyyətlər yetişir. Belə mütərəqqi şəxsiyyətlərdən biri də Qafur Rəşad Mirzəzadədir.

2. Q.R.Mirzəzadə səriştəli pedaqoq, gözəl müəllim, naşir, tərcüməçi, alim, maarifçi, bir sıra dərslik və tədris vəsaitlərinin müəllifi olmuşdur. XX əsrin I yarısında Azərbaycanda maarifçilik ideyalarının intişarında, məktəb və maarif həyatının canlanmasında, böyüməkdə olan nəslin təlim-tərbiyəsində, təhsilin demokratikləşməsində, milliləşməsində onun böyük xidmətləri olmuşdur.

3. XIX əsrin II və XX əsrin I yarısında Azərbaycanda ədəbi-mədəni, ictimai-pedaqoji həyatda baş verən hadisələr Q.Rəşadın bir maarifçi, ziyalı kimi formalaşmasına mühüm təsir göstərir. Belə ki, bu dövrdə məktəb və maarif şəbəkəsi daha da genişlənir, yeni tipli məktəblər açılır. Təhsilin demokratikləşməsi, müasirləşməsi, milliləşməsi istiqamətində diqqətəlayiq irəliləyişlər baş verir. Milli mətbuat intişar tapır, xeyriyyə cəmiyyətləri yaranır, milli şüurda oyanış baş verir. Xalqın və vətənin istiqlaliyyəti ideyası formalaşır və mütərəqqi ziyalıların mübarizə amalına çevrilir və s. Bütün bunlar Q.Rəşadın istər nəzəri fikirlərinin formalaşmasına, istərsə də əməli fəaliyyətinin istiqamətlənməsinə səmərəli dərəcədə təsir göstərir.

4. Azərbaycanda uşaq mətbuatının yaradılması yolunda Q.Rəşad böyük əziyyətlərə qatlaşmalı olur. O, ilk milli uşaq mətbuatımızın yaradıcılarından biridir. Onun naşiri və redaktoru olduğu «Məktəb» jurnalı ilk uşaq mətbuatı orqanlarımızdan biri və ən uzunömürlüsüdür. O zamankı böyüməkdə olan nəslin maariflənməsində, təlim və tərbiyəsində jurnalın böyük xidmətləri vardır. «Məktəb» jurnalı mətbuat və pedaqoji fikir tariximizin dəyərli abidələrindən biri kimi bu gün də dəyərini saxlamaqdadır. Burada uşaqlar üçün çoxlu sayda faydalı əsərlər nəşr olunmuşdur.

5. XX əsrin əvvəllərində uşaqların mütaliəyə olan ehtiyaclarını ödəməkdən ötrü Q.Rəşad bir sıra qiraət kitabları nəşr etdirmişdir. İstər tərcümə ədəbiyyatımızın zənginləşməsində, istərsə də böyüməkdə olan nəslin mənəvi ehtiyaclarının ödənməsində bu kitabların müəyyə faydası olmuşdur.

6. İstər ADC (Azərbaycan Demokratik Cümhuriyyəti), istərsə də sovet dönəmində Q.Rəşad bir pedaqoq və alim kimi öz əməli işini davam etdirmiş, sovet dövründə daha məhsuldar fəaliyyət göstərmişdir.

7. Tanınmış maarifçi olan Q.R.Mirzəzadə maarifçilik ideyalarını daha geniş şəkildə «Ayineyi-millət» əsərində, habelə ayrı-ayrı məqalə və dərsliklərində bəyan etmişdir.

8. Ömrünün 42 ilə qədərini müəllimliklə məşğul olan Q.Rəşad 20-dən artıq dərslik, dərs vəsaiti, lüğət, risalə və s. müəllifidir. Bu kitablardan 18-ə qədəri dərslik və dərs vəsaitidir.

9. Müəllifin hesab və qrammatikaya aid dərs vəsaiti və dərsliyi də vardır. Lakin onun dərsliklərinin əksəriyyəti coğrafiya fənni ilə əlaqədardır.

10. Q.Rəşad Azərbaycanda ilk coğrafiya dərsliyinin müəllifidir. O həm ümumi coğrafiya, həm SSRİ coğrafiyası, həm də Azərbaycan coğrafiyası ilə bağlı dərslik və iş kitabları yazmışdır. Pedaqoq alim XX əsrin 20-ci illərinin ən məhsuldar dərslik müəlliflərindən biridir.

11. Q.R.Mirzəzadənin coğrafiya dərslikləri və iş kitabları elmi məzmunu, tədris üçün faydalılığı, dilinin sadəliyi, şagirdlərin səviyyəsinə uyğunluğu, pedaqoji tələblərə, təlimin prinsip və metodlarına müvafiqliyi baxımından müasir tələblərə cavab verən mükəmməl tədris kitabları hesab oluna bilər.

12.Azərbaycanda təhsilin məzmununun yeniləşməsində uğurlu işlər görən Q.Rəşad təlim-tərbiyə nəzəriyyəmizin zənginləşməsi istiqamətində də gərəkli addımlar atmışdır. İstər ayrı-ayrı mətbu məqalələrində, istərsə də dərsliklərə yazdığı ön və son sözlərdə onun təlimin prinsip və metodları, ümumiyyətlə, təlim nəzəriyyəsi ilə əlaqəli dəyərli fikirlərinə rast gəlirik.

13. Q.Rəşadı böyüməkdə olan nəslin yalnız təhsili deyil, tərbiyəsi də ciddi şəkildə məşğul etmişdir. Tərbiyə ilə bağlı onun görüşləri həm nəzəri məqalələrində, həm bədii əsərlərində, həm də tərcümələrində özünü aydın şəkildə büruzə verir.

14. İctimai-pedaqoji fikir tarixmizin klassiklərindən olan Q.R.Mirzəzadə zəngin və dəyərli bir pedaqoji irs qoyub getmişdir. Onun pedaqoji irsi bu gün də öz qiymətini itirməmişdir. İndiki və gələcək nəsil üçün gərəkli bir örnəkdir. Ümumiyyətlə, bu böyük şəxsiyyətin həm fəaliyyəti, həm də əsərləri, sonrakı nəsillərdən ötrü bir nümunə və fədakarlıq məktəbidir.

Q.R.Mirzəzadənin pedaqoji fikir və təhsil tariximizdə oynadığı müstəsna rolu, maarifçilik fəaliyyətini, gördüyü nəzəri və əməli işləri,

zəngin yaradıcılıq irsini və bunların mədəni-pedaqoji həyatımızdakı dəyərini nəzərə alaraq aşağıdakı **təklifləri** irəli sürməyi lazım bilirik:

1. “Azərbaycan məktəb və pedaqoji fikir tarixi” fənnində tədris edilən görkəmli şəxsiyyətlər sırasına Q.R.Mirzəzadə də daxil edilsin. Onun həyatı və pedaqoji irsi, gördüyü işlər barədə tədris prosesində tələbələrə ətraflı məlumat verilsin.
2. Onun məqalələri toplanaraq ayrıca kitab halında nəşr edilsin.
3. Vaxtilə ərəb əlifbası ilə nəşr olunan «Əkinçi», «Molla Nəsrəddin» və «Füyuzat» jurnalları kiril və latın əlifbasına çevrilərək yenidən işıq üzü görmüşdür. Bu təcrübədən çıxış edərək deyə bilərik ki, Q.Rəşadın naşiri və redaktoru olduğu «Məktəb» jurnalı da uşaq mətbuatımızın möhtəşəm abidəsi kimi ərəb əlifbasından latın qrafikalı əlifbaya çevrilərək yenidən çoxcildlik halında çap edilsin.
4. Q.Rəşadın çoxsaylı dərsliklərindən və iş kitablarından bəziləri təhlil və pedaqoji fikir tariximizin elmi və tədris abidəsi kimi yenidən nəşr olunsun. Çünki bunlar həm tarixi-pedaqoji abidə, həm də faydalı elmi məlumat qaynağıdır.
5. Q.R.Mirzəzadənin həyatının, müəllimlik fəaliyyətinin və pedaqoji irsinin müxtəlif problemləri ilə bağlı tələbələrə, magistrlərə kurs, buraxılış işləri, referat və dissertasiya mövzuları verilsin.
6. Ali məktəblərin coğrafiya fakültələrində Q.Rəşadın adını daşıyan auditoriyalar təşkil edilsin.

Dissertasiyanın əsas müddəaları və məzmunu çap olunmuş aşağıdakı **əsərlərdə** öz əksini tapmışdır:

1. Görkəmli Azərbaycan pedaqoqu Q.R.Mirzəzadənin həyatı / “Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkil və onun yaxşılaşdırılması istiqamətləri” mövzusunda Respublika elmi konfransının materialı, Bakı, 2012, s.265-266
2. Qafur Rəşad Mirzəzadənin yaşadığı dövrün ictimai-siyasi və pedaqoji səciyyəsi // Pedaqoji Universitet Xəbərləri, 2012, №4, s.224-229
3. Выдающийся Азербайджанский педагог Г.Р. Мирзазаде // Вестник серия “педагогические науки” Алматы, 2012, № 2 (36), s.17-19
4. Qafur Rəşad Mirzəzadə və XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji mühit // Dil və ədəbiyyat, 2012, №4 (84), s.298-301
5. Q.R.Mirzəzadənin redaktorluğu ilə nəşr olunan məktəb jurnalında təhsil tərbiyyə məsələləri // Odlar Yurdu Universitetinin Elmi-pedqoji xəbərləri. Humanitar Elmlər seriyası, 2013, №35, s.112-117

6. Görkəmli Azərbaycan pedaqoqu Q.R.Mirzəzadənin yaradıcılığının əsas istiqamətləri // Pedaqoji Universitet Xəbərləri, 2013, №4, s.242-244

7. Qafur Rəşad Mirzəzadənin irsində tərbiyə məsələləri // Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri, BSU, 2013, №2, s.227-232

8. XX-ci əsrin əvvəllərində Azərbaycanda təhsil-tərbiyə mühitinin Qafur Rəşad Mirzəzadənin yaradıcılığına təsiri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2013, №1, s.255-260

9. Qafur Rəşad Mirzəzadənin tərcümələrində tərbiyə məsələləri // Dil və Ədəbiyyat, 2013, №1, s.237-243

10. XX əsrin 20-30cu illərində Qafur Rəşad Mirzəzadənin pedaqoji fəaliyyəti // Azərbaycan Dillər Universitetinin Elmi Xəbərlər, 2013, №1, s.344-349

11. Qafur Rəşad Mirzəzadənin ``Ayineyi-millət. Oyanız,qardaşlar`` əsərində maarifçilik ideyaları / Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji – psixoloji problemləri mövzusunda beynalxalq konfrans. Naxçıvan, 2013, s.139-140

12. Влияние педагогического наследия Г.Р. Мирзазаде на педагогическую мысль в Азербайджане // Психология и педагогика: актуальные проблемы и тенденции развития. Новосибирск, “ Сибак”2013, s.71-76

13. Деятельность выдающегося просветителя Гафур Рашад Мирзазаде в области оброзования // Реализачия сочиальных функчий непрерывного оброзования впрочессе подготовки сочиально педагогических кадров. Санкт-Петербург - Баку, 2015, s.90-91

14. Görkəmli maarifçi Qafur Rəşad Mirzəzadənin məktəb dərslikləri (1910-1920-ci illər) // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2016, №1, s.31-34

**С. ГАДЖИЕВА**

# ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И ПРОСВЕТИТЕЛЬСКИЕ ВЗГЛЯДЫ ГАФУРА РАШАДА МИРЗАЗАДЕ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, 2-х глав, выводов и использованной литературы.Во введении обосновывается актуальность темы, объект исследования, предмет, цель, задачи, методологическая основа, методы, научная новизна, теоретическое и практическое значение а так же излагаются основные положения выдвигаемые на защиту.

Первая глава диссертации называется "Социально-политическое и педогогическая среда во времена Г. Р. Мирзазаде. В этой главе исследуется социальная среда во второй половине XIX века и первой половины XX века. Анализируется важные моменты жизни и педагогической деятельности Гафура Рашада Мирзазаде, выявляются его борьба за создние детской литературы и прессы.

Вторая глава диссертации называется " Учебные и образовательные проблемы в педагогическом наследие Гафура Рашада Мирзазаде. В этой главе анализируется мнения Г.Р. Мирзазады относительно содержанию образования, исследуются идеи обучения , школьные учебники и обобщаются оброзовательные идеи.

В конце диссертацидано 14 пунктов заключений и 6 пунктов предложений,

**S.HAJIYEVA**

# Educational activities and educational views Gafur Rashad Mirzazade


## SUMMARY

The thesis consists of an introduction, 2 chapters, conclusions and used literature.

Introduction part is substantiate the actuality of the topic, object of the research, subject-matter, purpose, objectives, methodological basis, methods, scientific recency, theoretical and practical valu also outlines main points of context propounded to defence.

The first chapter of the dissertation is called " The socio-political and educational environment in times of G.R. Mirzazade. First chapter explores the social environment during the second half of the XIX century and the first half of the XX century. Also analyzes important moments of life and pedagocical performance of G.R. Mirzazade and discovers his efforts for the creation of children's literature and reading materials.

The second chapter of the dissertation is called "Teaching and learning problems in the pedagogical heritage of Gafur Rashad Mirzazade". This chapter analyzes G.R. Mirzazade's opinions regarding the content of education, explores the teaching ideas, schoolbooks and summarizes the educational thoughts.

There are 14 paragraphs as a conclusion and 6 paragraphs as an offer given at the end of the
dissertation.

**Министерство Образования Азербайджанской Республики**

**Азербайджанский Государственный Педагогический Университет**

*На правах рукописи*

**СЕВИНДЖ ТАХМАЗ гызы ГАДЖИЕВА**

# ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И ПРОСВЕТИТЕЛЬСКИЕ ВЗГЛЯДЫ ГАФУРА РАШАДА МИРЗАЗАДЕ

**5804.01 – Общая педагогика, история педагогики и образования**

# АВТОРЕФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**БАКУ-2016**